AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

1921

# LOQOMUZUN RƏSMİ İZAHI

c69948

1

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

1921

Bu loqo müasir Azərbaycan pedaqoji təhsilinin **əsas çalarlarını və prinsiplərini** özündə ehtiva edən, ADPU-nu təmsil etmək məqsədi ilə istifadə edilən qrafik işarələrdən ibarət olan rəsmi simvoldur.

Loqonun mərkəzindəki **açıq kitab təhsilin fasiləsizliyini, daimiliyini və dünyaya açıq** olduğunu ifadə edir.

Kitabın üstündə **iki bərabəryanlı düzbucaqlı** üçbucağın yaratdığı kvadrat **təhsilin inteqrativliyini, tamlığını, varisliyini və davamlılığını əks etdirir.** Üçbucaqlardan biri universitetin **keçmişini,** ikincisi **gələcəyini,** ikisi bir yerdə isə **bu gününü** əks etdirir.

Kitabı **dövlət bayrağımızın rənglərinə** boyanmış aypara əhatə edir. Bu rənglər loqoda Azərbaycan Respublikasının dövlət bayrağındakı mənasını **təhsilimizdə millilik, dünyəvilik və əxlaqi-mənəvi dəyərlərə sadiqlik prinsiplərini** əks etdirmək üçün istifadə olunub. Bu görüntü təhsilin gələcək nəsli **Azərbaycançılıq məfkurəsində tərbiyə etmək** kimi əsas vəzifəsinə eyham vurur.

Loqo isə təhsilin keyfiyyətlilik prinsipinə əsaslanan **qüdrətini və gücünü** əks etdirən qızılı rəngli əsas dairə ilə tamamlanır. Onun üzərində universitetin tam adı və yaranma tarixi olan **1921-ci il** qeyd olunub. 1921 yazısının sağındakı və solundakı **səkkizguşəli ulduz** Azərbaycan Respublikasının dövlət bayrağındakı müvafiq simvolun mənasını daşıyır və loqonun mənalanmasını təmin edir.

AZƏRBAYCAN DÖVLƏT
PEDAQOJİ UNİVERSİTETİ